# Tarixi abidələri məhv etməyin bir adı var: erməni vandallığı!

***Bəllidir ki, tarix boyu Ermənistan tərəfindən Azərbaycan xalqının maddi-mədəniyyət abidələrinə qarşı qəddar düşmənçilik siyasəti aparılıb. Erməni millətçiləri əllərinə fürsət düşən kimi həmin abidələri dağıdıb məhv etməyə, Yer üzündən silməyə çalışıblar. Dağıtmağı, məhv etməyi ermənilər yaxşı bilirlər. Onlar son iki yüz ildə Azərbaycana məxsus yüzlərlə, minlərlə abidəni yerlə-yeksan ediblər.***

Bunun adı vandalizmdir, bəli, bunun başqa adı yoxdur. Ermənistanda dövlət səviyyəsində xalqımıza məxsus tarixi abidələrə qarşı faktiki olaraq, soyqırımı siyasəti həyata keçirilir və bu ikrah doğuran xətt davam etdirilir.

Təkcə İrəvanda məhv edilən abidələrlə bağlı çox sayda misallar çəkmək olar. Məsələn, son bir neçə onilliklər ərzində Azərbaycan xalqının İrəvan şəhərində mövcud olmuş İrəvan qalası, Xan sarayı, Abbas Mirzə məscidi, Zal xan məscidi, Dəmirbulaq məscidi, Sərtip xan məscidi, Hacı Novruzəli bəy məscidi, Hacı Cəfər məscidi, Qantar (bazarı) karvansarası, Hacı bəyim hamamı, Hacı Əli hamamı, Axund Şeyxülislam hamamı və bu kimi bir çox digər dini və tarixi abidələri məhv edilib.

Acı təəssüf ki, bu amansız vandallıq aktları bu gün də davam etdirilir. Ermənilər tarixi saxtalaşdırmaqda da "mahirdirlər". Hazırda İrəvanda mövcud olan Hacı İmamverdi məscidi və Göy məscidi Ermənistan fars məscidi adlandırırlar. Hər halda xaricdən gələn turistlərə bu məscidlər məhz bu adla təqdim edirlər. Əllərinə fürsət düşən kimi onları da dağıdacaqlar.

Qeyd etmək lazımdır ki, İrəvan şəhərinin tarixini özündə əks etdirən və azərbaycanlıların mədəni irsinin yeganə sübutu olaraq qalan məkan Təpəbaşı məhəlləsidir. Ermənistan rəhbərliyi artıq bir müddətdir ki, Təpəbaşı hissəsini tamamilə dağıdaraq yerində müasir yaşayış binaları inşa etməyi planlaşdırır. Azərbaycan Turizm və Menecment Universitetinin professoru, tarix elmləri doktoru Minaxanım Əsədli hesab edir ki, erməni şovinistləri bu yolla bir zamanlar İrəvanın əsas sakinləri olan azərbaycanlıların sonuncu nişanəsini – tarixi kodunu məhv etmək istəyirlər.

Bu xəbər Azərbaycan ictimaiyyətində haqlı olaraq dərin nifrət və qəzəb hissi doğurub. Təsadüfi deyil ki, bu günlərdə Azərbaycanın elm və ictimaiyyət xadimlərinin bir qrupu İrəvandakı Təpəbaşı məhəlləsində xalqımızın tarixi-mədəni irsinə qarşı həyata keçiriləcək soyqırımı ilə bağlı UNESCO-ya müraciət ünvanlayıblar.

Azərbaycan ictimaiyyətinin tələbi sadə və aydındır. Bizim ziyalılar və vətəndaş cəmiyyəti fəalları UNESCO rəhbərliyinə müraciət edərək xahiş edirlər ki, İrəvanda yerləşən tarixi Təpəbaşı məhəlləsi bu qurumun müəyyən etdiyi humanitar missiyanın gedəcəyi ünvanlardan biri olsun. Müraciətə imza atanlar ümid edirlər ki, UNESCO həmin tarixi məkanı nəzarətə götürsə, Ermənistan oranı dağıdıb məhv etməyə cürət etməyəcəkdir.

**Siyasi elmlər doktoru Vüqar Rəhimzadə mediaya açıqlamasında bildirib ki,** erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə azərbaycanlılara və türklərə qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər. Tarixi faktlar təsdiqləyir ki, Ermənistan adlı uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına bəraət qazandırmaq məqsədilə erməni xalqının olmayan tarixinin süni surətdə şişirdilməsinə yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırılmışdır.

Vüqar Rəhimzadə sonra bunları deyib: "Tarixi həqiqətlər ermənilərin əsl simasını ortaya qoyur. 44 günlük İkinci Qarabağ müharibəsi ermənilərə və onlara havadarlıq edən dövlətlərə dərs olmalıdır. Dövlət başçısı İlham Əliyevin çıxışlarında yer alan bu hədəfimizi də yada salmaq istərdik: "Qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı – bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".





**Milli Məclisin deputatı Tahir Rzayev də hesab edir ki,** ermənilər zaman-zaman azərbaycanlılara qarşı deportasiya və soyqırımı siyasəti həyata keçirməklə yanaşı, Azərbaycan xalqına məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənlərini məqsədli şəkildə dağıdaraq viran qoyublar. Tarixi saxtalaşdırmaqla özlərinə tarix yazan mənfur düşmən milli sərvətimiz olan tarixi və dini abidələri məhv etməklə, onların Azərbaycana məxsusluğunu hər vəchlə gizlətməyə çalışır.

**Yeri gəlmişkən, sözügedən müraciəti ünvanlayanlardan biri, Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov qeyd etdi ki,** qədim Azərbaycan şəhəri İrəvan və onun əsas məhəllələrindən olan Təpəbaşıda ermənilər xalqımıza məxsus irsi sistemli şəkildə dağıtmağa başlayıblar və bu proses indi də davam edir. Hazırda Təpəbaşı məhəlləsi tamamilə məhv olmaq təhlükəsi ilə üz-üzədir.

Professor sonra Təpəbaşı məhəlləsinin Azərbaycan xalqına məxsusluğuna dair danılmaz tarixi faktları açıqladı: "Təpəbaşı məhəlləsindəki məscidlər, hamamlar onun Azərbaycan xalqına məxsus memarlıq irsi olduğunu sübut edir. Həmin məhəllənin əhalisinin əsas hissəsinin türk-müsəlman əhali olması, yalnız çar hökumətinin köçürmələri hesabına bu faiz nisbətində müəyyən dəyişikliklərin yaranması 1831-ci ilə məxsus kameral təsvirdən də aydın görünür".

Bütün bu məhəllələr bağlardan ibarətdir və qış vaxtı buralarda heç kim yaşamır. Məmri arxı şəhərin Təpəbaşı hissəsini və şəhər hissəsinin bir neçə bağını suvarır, daş borularla Qalaya gedir və onu su ilə təchiz edir. 1831-ci ildə İrəvan şəhərinin Təpəbaşı hissəsində tatarlardan, yəni Azərbaycan türklərindən ibarət 594 ailə, 1333 kişi, 1264 qadın, cəmi 2537 nəfər qeydə alınmışdı. Ermənilərdən isə burada 277 ailə, 589 kişi, 587 qadın, ümumilikdə 1176 nəfər qeydiyyatda idi. Kameral təsvirdə 1831-ci ildə Təpəbaşı məhəlləsində Hüseynəli xan məscidi və Hacı İmamverdi məscidi göstərilib. Bu məscidlərdən başqa, bir neçə də uçmuş məscidlər var ki, onlar burada qeyd olunmayıb.

Vaxtilə azərbaycanlılardan ibarət olan bu məhəllənin etnik tərkibi tarixin üç mərhələsində (1918-1920-ci, 1948-1953-cü, 1988-ci il illər) süni şəkildə dəyişdirilib və bu gün ermənilərdən ibarət monoetnik məhəlləyə çevrilib. Burada yaşayan insanlar özlərini yerli irəvanlı adlandırsalar da, onların çox kiçik bir qismi daha öncədən bu ərazidə yaşadığına dair sübutlar gətirə bilir.

Lakin burada yaşayanların böyük hissəsi 1920-ci illərdə hələ İrəvan adlandırılan şəhərə qonşu dövlətlərdən köçürülən ermənilərdən ibarətdir. Həm Ermənistan, həm də Azərbaycan arxivlərində bunu sübut edən minlərlə sənəd saxlanılmaqdadır.

Professor Anar İsgəndərov ümid etdiyini bildirdi ki, UNESCO rəhbərliyi ona ünvanlanan müraciətə etinasız qalmayacaq və tarixi, memarlıq və hüquqi aspektlərdə Azərbaycan xalqına məxsus Təpəbaşı məhəlləsinin bərpasına, erməni vandalizmindən xilas olmasına öz köməyini göstərəcək.

Sonda bir məqamı da vurğulamaq yerinə düşər. Bu gün sivil dünya, eləcə də qlobal media Ermənistanın törətdiyi vandalizm aktlarına biganə qalmamalıdır. Dünya birliyi özünü "yazıq", "məzlum" kimi təqdim etməyə cəhd edən ermənilərin əsl xislətindən agah olmalıdır. Onların İrəvanda xalqımızın abidələrinə qarşı törətdikləri bədnam əməllərin isə bircə adı var: erməni vandallığı!

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 9 iyul.- S.6.